**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

Bakı şəhəri № 234/4 5 oktyabr 2012-ci il

“Açıq Hökümətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Faliyyət Planı”nın və “Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikası Auditorlar Palatasının İş Planlarının (2012-2013-cü və 2012-2015-ci illər)” təsdiq edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli sərəncamı ilə təsdiq edilmiş “Açıq Hökümətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Faliyyət Planı”nı və “Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nı rəhbər tutaraq, auditor xidmətinin inkişafı və təkmilləşdirilməsi, şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə uğurla və davamlı olaraq aparılan islahatların həyata keçirilməsində bir sıra məsul dövlət qurumlar sırasında Auditorlar Palatasının da üzərinə düşən vəzifələrin yüksək səviyyədə və vaxtında icrasını təmin etmək məqsədilə “Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın və “Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın həyata keçirilməsi ilə bağlı Auditorlar Palatasının İş Planlarının (2012-2013-cü və 2012-2015-ci illər) layilərini və Şura üzvlərinin təkliflərini müzakirə edərək, Auditolar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın və “Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikası Auditorlar Palatasının İş Planları (2012-2013-cü və 2012-2015-ci illər)” təsdiq edilsin (əlavə olunur).
2. Auditin tənzimlənməsi və şəffaflığın təminatı idarəsinə (M.Abbasov) tapşırılsın ki, təsdiq olunmuş İş Planları müvafiq dövlət qurumlarına təqdim edilsin.
3. Təsdiq olunmuş İş Planlarında nəzərdə tutulmuş işlərin məsul icraçılar tərəfindən vaxtında və yüksək səviyyədə yerinə yetirilməsi təmin edilsin.
4. Bu qərar və “İş Planları” Palatanın internet saytında yerləşdirilsin.

**ŞURANIN SƏDRİ V.NOVRUZOV**